# DINC ƏHALI ATƏŞ ALTINDA!

**Azərbaycan Hüquq Müdafiə Təşkilatları Monitorinq Qrupunun Qarabağ uğrunda gedən Vətən Müharibəsi zamanı dinc əhalinin hədəfə alınması ilə bağlı**

## HESABAT



Bakı 2020, Oktyabr

# Mündəricat


27 Sentyabr 2020: Azərbaycanın yaşayış məntəqələri hədəf alınır ........ 3
Tərtər şəhəri: gün ərzində 300 raket zərbələri endirilir ........ 6
Cəbhə xəttindən uzaq rayonların dinc sakinlərinin evləri dağılır ........ 8
Gəncə şəhəri ballistik raket zərbəsi altında ........ 11
Hərbi əməliyyatların getdiyi dövrdə mülki əhaliyə dəyən zərər ........ 13
Raket zərbələri nəticəsində yaralanmış dinc əhali ........ 15
Bərdə rayonuna 3 dəfə böyük dağıntılar törədən raket atılır ........ 16
Dinc əhalinin hədəf alınmasına reaksiyalar ........ 20
Nəticə ........ 21
Təkliflər ........ 22
Əlavələr ........ 23

# 27 SENTYABR 2020:
# AZƏRBAYCANIN YAŞAYIŞ MƏNTƏQƏLƏRI HƏDƏF ALINIR

2020-ci il sentyabrın 27-də səhər saat 6-da radələrində Ermənistan silahlı qüvvələri Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonları istiqamətində Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutur. Ermənistan tərəfinin başladığı bu aqressiya qısa bir zamanda Azərbaycan rəhbərliyini cavab tədbirləri görməyə və Ermənistan silahlı qüvvələrinin dinc əhalini hədəf almasının qarşısını almağa məcbur edir.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutması, mülki şəxslər və hərbçilər arasında ölən və yaralananların olması, bu hücumların qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına başlaması ilə əlaqədar Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi vəziyyət elan edilməsi haqqında fərman imzalayır. 28 Sentyabr saat 00:00-dan Azərbaycanın bütün ərazisində hərbi vəziyyət rejimi qüvvəyə minir. Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında hərbi vəziyyət dövründə saat 21:00-dan saat 06:00-dək komendant saatı tətbiq edilir.

Ermənistan ordusunun aqressiyasına cavab olaraq Azərbaycan ordusunun əks-hücumu ilə Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri azad edilib, Ağdərə rayonu və Murovdağ istiqamətlərində düşmən postları dağıdılır, hakim yüksəkliklər nəzarətə götürülür. Bununla da Ermənistan tərəfinin provakasiyasına cavab olaraq başlanan əks hücum əməliyyatına start verilir və qarşı tərəf cəbhədə uğursuzluqlarını ört basdır etmək üçün Azərbaycanın cəbhə xətti boyu yerləşən və ondan çox uzaqda olan şəhərlərini hədəfə alır.

Erməni tərəfinin atdığı silahlar əsasən dinc sakinlərinin evlərinə, gecə saatlarında baş verir. Ermənistan tərəfinin döyüş bölgəsində istifadə etdiyi top və qumbaraatan mərmilərindən başqa Azərbaycanın cəbhə xəttindən uzaqda yerləşən rayonlara atdığı silahlar bunlardır:

**R-17 Elbrus, ("Skad")**




1961-1987-ci illərdə SSRİ tərəfindən istehsal olunmuş taktiki ballistik raketdir. R-17 "ELBRUS" ("SCUD-B" (raketin NATO kod adıdır) kompleksi raketlərinin hədəfdən yayınma dairəsi 450 metr təşkil edir. Nəzərə alsaq ki, sonuncu buraxılışı 1987-ci ildə baş tutan bu raketlər yetərincə köhnədir, indi bu raketlər dəqiq zərbə qabiliyyətini itirib və yayınma dairəsi daha böyükdür. Buna görə də "SKAD"lardan hərbi hədəflərin məhvi üçün istifadə etmək effektiv deyil. Raketin ağırlığı 6900 kq, uçuş məsafəsi isə 300 kilometrdir.

**9K58 "Smerç" (BM-30)**

Katyuşa nəslindən olan reaktiv yaylım atəşi sistemidir. Bu sistem 1970-ci illərin sonunda SSRİ-də istehsal olunmuş və 1987-ci ildə SSRİ Silahlı Qüvvələrinin arsenalında tətbiq edilir. Smerç

qısa məsafəli ballistik raket sistemi olan FROG-7-ni əvəz etmişdir. Raketin maksimum atış məsafəsi 90–124 km, maksimum məsafə isə 850 kilometrdir. 12 atış lüləsindən ibarət olan bu raketin məhvetmə radiusu 672.000 m² və hədəfi vurma dəqiqliyi isə 0.3% metr təşkil edir.
*(Bərdə şəhərinə atılan "Smerş" raketləri) Müəllif: Famil Mahmudbəyli*

Hər iki silahın yaşayış məntəqələrinə, insanların sıx toplaşdığı yerlərə atılması qadağan olunmuşdur.

*( Bərdə Şəhərinə atılan raket)*



Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi Agentliyin (ANAMA) əməliyyat qrupları tərəfindən Ermənistan silahlı qüvvələri tərəfindən atılmış 20-dən çox 9M528 raketi (SMERÇ) aşkar olunub. Həmin raketlərdən 9 ədədinin içərisindən 9M525 bombacıqlarına rast gəlinib ki, bu bombacıqlar da "Kaset sursatlar haqqında" Konvensiyaya görə qadağan olunmuş sursatlar sinifinə daxildir. Həmçinin qeyd olunan ərazidə aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 9M525 kaset tipli raketinin "bombacıqları daşıma konteyneri və paylama boruları"-nın da aşkarlanması bu tipli raketlərin istifadəsini təsdiq edən amillərdəndir.



Ümumilikdə ANAMA tərəfindən 27 sentyabr - 27 oktyabr 2020-ci il tarixlərində Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Kürdəmir, Füzuli, Tərtər, Tovuz, Şəmkir, Hacıqabul, Zərdab, Xızı, Oğuz, Qəbələ rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İES-in ərazisinə, Bakı-Tbilisi-Ceyhan Boru Kəmərinin yaxınlığına 298 ədəd partlamamış hərbi sursat, 1627 ədəd piyada əleyhinə mina, 51 ədəd tank əleyhinə mina, 236 ədəd tank əleyhinə minanın partladıcısı, 76 ədəd detonator, 1 149 ədəd 9N235 bombacıqları, 1 180 ədəd müxtəlif çaplı patronlar, 1 ədəd qaz qumbarası, 17 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 6 ədəd dron (zərərsizləşdirilib), 2 ədəd raketin mikrosxemi və 506 ədəd partlamış raket hissələri aşkar olunub.[1]

[1] https://news.milli.az/incedent/892844.html



*Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi Agentliyin (ANAMA) müxtəlif rayonlara atılmış raketlərin qalıqları.*

# TƏRTƏR ŞƏHƏRI: GÜN ƏRZINDƏ 300 RAKET ZƏRBƏLƏRI ENDIRILIR



Tərtər rayonu Kiçik Qafqazın şimal-şərq ətəklərində, Qarabağ düzündə yerləşir cəbhə xəttinə yaxın olan rayonlardan biridir. Sahəsi 957 $km^2$, əhalisi 104,200 min nəfər olan rayonun mərkəzi Tərtər şəhəridir. Rayon mərkəzi və bir neçə kəndləri cəbhə xəttinə yaxın olduğu üçün daimi olaraq ermənilər tərəfindən snayper atəşinə məruz qalmışdır. 1994-cü ildə Qarabağ müharibəsi dövründə rayonun ərazisi güclü dağıntılara məruz qalmışdır. Müharibə dövründə Tərtər rayonundan olan 307 nəfər həlak olmuşdur.

2016-cı il aprel eskalasiyası zamanı rayon ərazisinə ermənilər tərəfindən yüzlərlə raket, xüsusən fosforlu raket atılmışdır. Bununla yanaşı son 5 il ərzində 15 nəfər rayon əhalisi öz əkin sahələrində işləyərkən ermənilərin basdırdığı minalara düşmüş və ciddi zədə almışlar.



Tərtər rayonu məcburi köçkünlərin kompakt yaşadığı rayonlardan biridir. Buranın təbiətinin Dağlıq Qarabağın və işğal olunmuş rayonların təbiətinə yaxın olduğu üçün məcburi köçkün düşmüş insanlar daha çox bu rayonun ərazisində məskunlaşmağa üstünlük vermişlər.

*(Tərtər rayonu Şıxarx qəsəbəsi, məcburi köçkünlər üçün salınmış qəsəbədə dağıntılar. Müəllif Seymur Kazımov)*

Ermənistan silahlı qüvvələrinin Tərtər şəhərini ağır artilleriyadan atəşə tutması sentyabrın 27-dən başlayaraq bu günə kimi davam etməkdədir. Sentyabrın 27-dən ən çox ziyan çəkən məntəqələrdən biri də Tərtər şəhəri və Tərtərin Şıxarx qəsəbəsində yerləşən yaşayış məhəlləsidir. Məcburi köçkünlər üçün 2017-ci ildə tikilən bu qəsəbədə əsasən Kəlbəcər, Ağdam, Laçın, Cəbrayıl və Şuşa rayonlarından olan 1170 məcburi köçkün ailəsi məskunlaşıb. Atəş nəticəsində 3 mülki şəxs həlak olub, 34 yaşayış binası, musiqi məktəbi, orta məktəb və digər inzibati binalar xəsarət alıb.[2]

Ermənilərin intensiv atəşə tutduqları rayon əraziləri Tərtər şəhəri, Şıxarx qəsəbəsi, Hüsənli, Qaynaq, Seydimli, Qazyan, Yuxarı Qapanlı, Qapanlı, Yuxarı Qaradağlı, Qaraağacı, Əskipara, Səhləbad, Borsunlu, Azad Qaraqoyunlu, İlxıçılar, Dəmirçilər, Aşağı Qapanlı, Evoğlu, İsmayılbəyli, Cəmilli, Bala Kəngərli, Düyərli, Yuxarı Sarıcalı, Ağkənd, Yenikənd, Bayandurlu, Soyulan, İrəvanlı, Kəngərli, Hacıqərvənd, Xoruzlu, Buruc, Bayandur, Qaradağlı və Köçərli kəndləridir. [3]

[2] https://pressklub.az/ekskluziv/dinc-%c9%99haliy%c9%99-qarsi-erm%c9%99ni-ordusunun-cinay%c9%99tl%c9%99ri-1-ci-reportaj-sixarx-q%c9%99s%c9%99b%c9%99si/
[3] http://anama.gov.az/news/154

Raket atəşi nəticəsində 118 ev təmamilə dağılıb, 646 fərdi evə, 64 çoxmərtəbəli yaşayış binasına ziyan dəyib, 30 yardımçı tikililər tam dağılıb, 50 binaya isə ziyan dəyib. Bu müddət ərzində erməni təxribatları nəticəsində Tərtərdə 19 sosial obyektə, 8 istehsal obyektinə, 44 ticarət mərkəzi və 18 inzibati binaya ziyan dəyib.

Azərbaycan Respublikası Prokurorluğunun yaydığı məlumata görə bu günə qədər Tərtər şəhərinə və onun 36 yaşayış məntəqəsinə 14 min müxtəlif çaplı raket atılmışdır.











# CƏBHƏ XƏTTINDƏN UZAQ RAYONLARIN DINC SAKINLƏRININ EVLƏRI DAĞIDILIR

Sentyabrın 27-dən başlayaraq Erməni tərəfi Azərbaycanın müxtəlif rayon və şəhərlərini intensiv raket atəşinə tutmuş, həmin rayonlarda yaşayan dinc əhali və onların fərdi evlərini hədəf almışdır. Azərbaycan tərəfi elan olunmuş atəşkəs rejiminə əməl olunması üçün özünün hazır olduğunu sübut etmiş, rejimin pozulmasına gətirib çıxaran əməliyyatları dayandırmışdır. Lakin, qarşı tərəf yaşayış məntəqələrinə məhz atəkəs rejiminə əməl olunduğu vaxtda zərbələr endirmişdir.

10 oktyabr 2020-ci il tarixdə saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Ermənistan tərəfi Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini və strateji obyektləri ağır artilleriyadan atəşə tutmağa davam etmişdir. Beləki, 11.10.2020-ci il tarixdə gecə saat 04 radələrində cəbhə zonasından 100 km-dən artıq uzaqda yerləşən, iri sənaye şəhəri Mingəçevirə raketlər atılmışdır. Ermənilərin əsas hədəfi Azərbaycan İstilik Elektrik Stansiyası olmuşdur. Raketlər Azərbaycan hərbi hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilmişdir. Buna baxmayaraq, bir neçə raket Azərbaycan İstilik Elektrik Stansiyasının həyətinə düşmüş və partlamamışdır.



*Mingəçevir şəhəri Kür çayının üzərində su elektrik stansiyasının tikintisi ilə bağlı salınmışdır. 11 noyabr 1948-ci ildə şəhər statusu almışdır. Mingəçevir Azərbaycanın dördüncü iri sənaye mərkəzidir. Sənaye istehsalı şəhər iqtisadiyyatının mühüm sahəsindən biridir. Bu sahənin fəaliyyəti sabitliyin və sosial inkişafın əsas göstəricisidir. Əhalinin əsas hissəsi energetika, elektrotexnika, kimya, maşınqayırma sahələrində çalışır. Cəbhə xəttindən 110 kilometr, Bakı şəhərindən isə 323 km məsafədə yerləşir.*
*Mingəçevir Su Elektrik Stansiyası Cənubi Qafqazda ən böyük su elektrik stansiyası olub, Kür çayının üzərində, Mingəçevir şəhərinin yaxınlığında yerləşir.*
*Mingəçevir su anbarı şəhərin şimal-qərbindən 3 km məsafədə yerləşir. Su anbarının həcmi 15,7 milyard kub metr, uzunlugu 70 km.*
*Mingəçevir şəhərinin əhalisi 105 139 nəfərdir ki, şəhər ərazizisində 20 199 nəfər məcburi köçkün ailəsi məskunlaşmışdır.* [4]

Ermənistan silahlı qüvvələri 18 oktyabr 2020-ci il tarixdə, saat 13 radələrində hərbi əməliyyatlar aparılan ərazidən 300 kilometr uzaqda yerləşən Xızı rayonu istiqamətinə raket zərbələri endirmişdir. Azərbaycan Ordusunun hərbi hava hücumundan müdafiə qüvvələri tərəfindən raketin havada zərərsizləşdirilməsi nəticəsində onun içərisində olan partlayıcı hissəciklərin bir hissəsi Bakı-Novorossiysk neft kəmərinin Xızı rayonunun Sitalçay kəndindən keçən hissəsindən 250 metr məsafəyə səpələnmişdir. Azərbaycan ordusunun bu raketi vurması ilə böyük ötürücülü xam neft və kondensat ixrac edən kəmərə təhlükə aradan qaldırılmışdır. [5]

[4] https://heydaraliyev-centers.az/mingachavir/about-region
[5] https://oxu.az/war/432249

*Azərbaycan Respublikasının Xızı rayonu döyüş bölgəsindən 300 kilometrdən artıq məsafədə yerləşir. Quba – Xaçmaz regionunda, Xəzər dənizinin sahilində yerləşən və əsas hissəsi meşə ilə əhatəli olan rayon Azərbaycanın dağ rayonları içərisində Bakıya ən yaxın olan rayondur. Xızı şəhərindən Bakıya olan məsafə 70 km təşkil edir.*

Mülki əhalini hədəfə almaqla raket və artilleriya mərmilərindən 08.10.2020-ci il tarixdə səhər saatlarından başlayaraq Goranboy rayonu ermənilər tərəfindən müxtəlif istiqamətlərdən atəşə tutulmuşdur. Səhər saat 06.00-dan rayonun Aşağı Ağcakənd qəsəbəsi ərazisinə top mərmilərinin düşməsi səbəbindən orada yerləşən Xocalı Rayon Polis Şöbəsinin inzibati binasına, o cümlədən qəsəbə ərazisində çoxsaylı mülki infrastruktur obyektlərə və yaşayış evlərinə, Qaraçinar tam orta kənd məktəbinə külli miqdarda ziyan dəymişdir.

*Goranboy rayonu Kiçik Qafqazın şimal-şərq ətəklərində yerləşir. Rayonun sahəsi 1791 kv.km, əhalisi 91,5 min nəfərdir. Dağlıq Qarabağdan olan məcburi köçkünlər üçün salınan ən böyük qəsəbələrdən biri rayonun Aşağı Agcakənd qəsəbəsində yerləşir.*

Oktyabrın 22-də səhər saatlarında yenidən Ermənistan ərazisindən Azərbaycan ərazisi əməliyyat-taktiki raket kompleksindən ballistik raketlərlə atəşə tutulur. Siyəzən rayonu istiqamətində 3 raket zərbəsi endirilir. Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən havada zərərsizləşdirilən raketlərin qalıqları Xəzər dənizinə düşür və nəticədə 5 nəfər yaralanır, insanların mənzillərıə və əkin sahəsinə zərər dəyir.[6]

*Siyəzən rayonu Azərbaycanın şimal hissəsində, Xəzər dənizinin sahilində yerləşir. Ərazisi 703 kv.km, əhalisi 40 489 nəfərdir. Rayon mərkəzinədən Bakı şəhərinə qədər olan məsafə 103 km, cəbhə xəttindən rayona qədər olan məsafə 339 kilometrdir.*

Oktyabrın 22-də saat 09.00 isə Qəbələ rayonu istiqamətinə 2 raket zərbələri endirilir. Raket zərbəsi Qəbələnin Mamaylı kəndinin yaxınlığındakı boş sahəyə düşür. Bəzi evlərin dam örtükləri və evlərin pəncərələri tökülür. Raket zərbələri nəticəsində Qəbələ rayon sakini, 2003-cü il təvəllüdlü Əmirbəyov Murad Ceyhun oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıb, kənd ərazisində yerləşən 5 yaşayış evinə ciddi ziyan dəyib.

Həmçinin Ermənistan silahlı qüvvələri Bakı və Abşeron yarımadasını içməli su ilə təchiz edən və xüsusi strateji əhəmiyyətə malik Oğuz-Qəbələ-Bakı su kəmərini hədəfə almışlar. [7] Azərbaycan hava hücumundan müdafiə qüvvələrinin zərərsizləşdirməsi nəticəsində raketin hissələri su kəmərinin yaxınlığına düşmüşdür.

*Qəbələ rayonu Azərbaycanın şimal-qərb hissəsində, Şəki-Zaqatala iqtisadi rayonunun tərkibində yerləşir. Rayon Azərbaycanın ən böyük turistik zonası hesab olunur. Rayon Bakı şəhərinidən 270 km, cəhbə bölgəsindən isə 348 kilometr məsafədə yerləşir.*

Oktyabrın 22-də səhər saatlarından başlayaraq Ermənistan silahlı birləşmələri mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə edib və cəbhə zonasından 150 kilometrdən çox uzaqda yerləşən Kürdəmir rayonuna "Skad" ballistik [8]taktiki raketi atıb. Düşdüyü ərazidə böyük çuxur yaradan raket ətrafa zərər vurmamışdır.

[6] https://report.az/dagliq-qarabag-munaqishesi/dusmenin-siyezene-atdigi-raketlerin-qaliqlari-denize-dusdu/
[7] https://azertag.az/xeber/Ermenistanin_Kurdemire_atdigi_ballistik_raket_yasayis_menteqesinin_yaxinligina_dusub_FOTO_VIDEO-1621145
[8] https://report.az/dagliq-qarabag-munaqishesi/ermenistan-erazisinden-azerbaycan-erazileri-raket-atesine-tutulub/

Kürdəmir rayonu *Bakı-Qazax magistral yolunun üstündə yerləşən rayondur. Kürdəmir cəbhə bölgəsindən 120 kilometr məsafədə yerləşir.*

05 oktyabr 2020-ci il tarixdə səhər saatlarından etibarən Ermənistanın silahlı qüvvələri Beyləqan rayonunun mülki əhalisinin sıx yaşadığı məntəqələri ağır artilleriyadan atəşə tutmuşlar. Eyni zamanda, Beyləqan şəhərinə atılmış 2 ədəd raket mərmisindən 1 ədədi uşaq bağçasının həyətinə, digəri isə şəhər ərazisindəki boş sahəyə düşmüşdür.

*Beyləqan şəhəri cənubdan İran İslam Respublikası ilə həmsərhəddir. Aran Qarabağın Fizuli və Ağcabədi rayonları ilə həmsərhəddir. Əhalisi - 98,7 min nəfərdir. Bakıdan 265 km məsafədə yerləşib.*

06 oktyabr 2020-ci il tarixdə 18:30 radələrində Ermənistan silahlı qüvvələri hərbi obyektlərin olmadığı və hərbi əməliyyatlar aparılan ərazidən 50 kilometrdən uzaq məsafədə yerləşən Yevlax rayonunun Aran qəsəbəsinə içərisində 300 ədəd 9N235 bombacıqları olan reaktiv yaylım atəşli, 9M525 qəlpəli "Smerç" [9]raketindən atəş açmışlar. Nəticədə atılan raketlərin qalıqları Aran qəsəbəsindən keçən diametri 42 düym olan Cənub Qafqaz Genişlənmiş Boru kəmərinin boru xətti, xam nefti Qara dəniz sahilinə nəql edən Qərb İxrac Boru kəməri (raketlər 120 metr məsafəyə səpələnmişdir) Bakı-Tbilisi-Ceyhan (BTC) Neft kəmərindən 100 metr məsafəyə səpələnmişdir.

*Yevlax rayonu Tərtər, Goranboy, Bərdə rayonları ilə həmsərhəddir. Əhalisi - 128,7 min nəfərdir. Azərbaycanın böyük nəqliyyat qovşağıdır. Bakıdan 293 km məsafədə yerləşir.*






[9] https://www.turan.az/ext/news/2020/10/free/politics%20news/az/128435.htm

# BƏRDƏ RAYONUNA 3 DƏFƏ BÖYÜK DAĞINTILAR TÖRƏDƏN RAKET ATILIR

Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Bərdə şəhərinə eskalasiyanın başlandığı müddətdən indiyə kimi bir neçə dəfə raket atılmışdır.

İlk dəfə Bərdə şəhəri oktyabrın 5-də saat 13:35-də Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriyadan atəşə tutulmuşdur. Bərdə şəhərinin mərkəzi küçələrinə və mərkəzi xəstəxananın yaxınlığına düşmüş raket infrasturktura ziyan vurmuşdur. Mərmi qəlpələrindən Mehdiyeva



Şəhriyar İsa qızı [10]həlak olmuş, üç nəfər şəhər sakini isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişlər.

Növbəti raket zərbəsi 26 oktyabr 2020-ci il tarixdə saat 08:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobudscasına pozan Ermənistan tərəfindən oktyabrın 27-də saat 16.00-da atılmışdır. Bərdə rayonunun Qarayusifli kəndinə atılan raket hücumu nəticəsində biri uşaq olmaqla, beş nəfər həlak olmuş, on üç mülki şəxs isə yaralanmışdır.

Üçüncü dəfə Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə səhəri oktyabrın 28-də saat 13.00-da "Smerç" raket qurğularından atəşə tutulmuşdur. Şəhərin ticarət obyektlərinin yerləşdiyi, şəhər dinc sakinlərinin daha sıx hərəkətdə olduğu mərkəzi küçəyə raket zərbəsi endirilmişdir. Şəhərin mərkəzinə atılan "Smerç" kaset tipli raketlərin partlayışı nəticəsində 21 nəfər həlak olmuş, 70 şəxs yaralanmışdır. Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və bir çox nəqliyyat vasitələrinə külli miqdarda ziyan vurulmuşdur. Bərdə Şəhər Mərkəzi Xəstəxanası, Şəhər



Poliklinikası, Yanğınsöndürmə Xidməti, Diaqnostika Mərkəzi, doqquzmərtəbəli yaşayış binası və şəhərin "Təzə Bazar" adlanan ərazisi hədəfə alınmış və ciddi dağıntılara məruz qalmışlar.

Bərdə şəhərinin mərkəzində yerləşən "Qədim Bərdə" restoranına raketin düşməsi nəticəsində həmin vaxt orada olan iki nəfər şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişlər. Eyni zamanda Bərdə şəhər 5 nömrəli tam orta məktəbin yaxınlığına düşmüş

[10] https://www.xeberoxu.az/Berdeye-atilan-raket-mermisinin-qelpelerinden-1-nefer-helak-olub-3-nefer-yaralanib/20201005132617626

raketlər beş nəfər şəxsin yaralanmasına səbəb olmuş, o cümlədən məktəbin binasına, çoxsaylı nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir. Raket zərbələrinin təsirindən 30-dan artıq mülki infrastruktur obyektinə, dinc sakinlərə məxsus 20-dən artıq fərdi yaşayış evinə və 22 nəqliyyat vasitəsinə xüsusilə külli miqdarda ziyan dəymişdir.

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyi (ANAMA) Bərdə şəhərinə Ermənistan tərəfindən 9M525 "Smerç" raketi [11]atıldığını müəyyən etmiş, raketin qalıqları Bərdəyə səfər etmiş xarici səfirliklərin nümayəndələrinə və jurnalistlərə təqdim olunmuşdur.

*Bərdə rayonu Kür-Araz ovalığının şimal-qərb hissəsində yerləşir. Rayonun inzibati mərkəzi Bərdə şəhəri Qarabağ düzünün mərkəzində, Tərtərçay sahilində yerləşir. Rayonun ərazisi 957 kv.km, əhalisi isə 160 000 nəfərdir. Bərdə rayonu məcburi köçkünlərin ən çox məskunlaşdığı şəhərlərdən biridir. Bərdə şəhəri cəbhə xəttindən 40 kilometr kənarda yerləşir.*










[1111] http://anama.gov.az/news/157

# GƏNCƏ ŞƏHƏRI BALLISTIK RAKET ZƏRBƏSI ALTINDA



Azərbaycanın ikinci böyük şəhəri və müharibə zonasından 80 km uzaqda yerləşən Gəncə şəhəri oktyabrın 4-də Ermənistan silahlı qüvvələri tərəfindən ballistik raket zərbələrinə tutulur. Bazar günü səhər saatlarında atılan raket hücumu nəticəsində bir nəfər həlak olur və 30 nəfər yaralanır. Erməni tərəfi raket zərbəsi ilə şəhər ərazisində yerləşən hərbi aerodromu hədəf aldığını bildirirdi. Lakin həmin hərbi aerodrom SSRİ dövründə istifadəyə verilmiş və infrastrukturun köhnəlməsi səbəbindən fəaliyyət göstərməmişdir. Gəncədə fəaliyyət göstərən yeganə hava limanı isə mülki aviasiya üçün nəzərdə tutulub.

Ermənistan silahlı qüvvələrinin növbəti raket hücumu oktyabrın 11-də gecə saat 02.00-da baş tutur. Raket zərbəsindən dağılan evlərin qalıqları altında 3 qadın olmaqla 7 nəfər həlak olmuş, 16 qadın, 6 azyaşlı olmaqla 34 nəfər yaralanmış, həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektlərə ziyan dəymişdir.

Gəncə şəhərinə atılmış raketlər Gəncə beynəlxalq xəstəxanasının, 34 saylı orta məktəbin, Şah İsmayıl Xətai küçəsində yerləşən mebel fabrikinin yaxınlığına, "Yevlax avtovağzalı" kimi adlandırılan əraziyə və mərkəzi bazara atılması nəticəsində 3 nəfər mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmiş, mülki infrastruktura külli miqdarda ziyan dəymişdir.

Gəncəyə 9K72 operativ-taktiki raket kompleksinin (OTZK) 8K14 raketi atılmışdır ki, bu raket kompleksi canlı qüvvəni, idarəetmə məntəqələrini məhv etmək üçün nəzərdə tutulur. [12]Raketin atəş məsafəsi 50-300 kilometr, maksimal uzaqlığa uçma vaxtı 5 dəqiqə, start çəkisi 5862



[12] https://news.milli.az/politics/889396.html

kiloqram, doldurulmamış raketin çəkisi isə 2076 kiloqramdır. Uzunluğu 11 metr 164 santimetr, korpusunun diametri 881 metrdir. Kompleksin ümumi çəkisi 37 ton, döyüş heyəti 8 nəfərdən ibarətdir.

Ermənistan tərəfindən atılan raket Xankəndi ətrafındakı Ballıca yaşayış məntəqəsinin yanından start mövqe tutaraq oradan zərbə endirib.












# HƏRBI ƏMƏLIYYATLARIN GETDIYI DÖVRDƏ MÜLKI ƏHALIYƏ DƏYƏN ZƏRƏR

Azərbaycan Baş Prokurorluğu bildirib ki, Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində indiyədək Azərbaycanda 87 mülki şəxs öldürülüb, 400 nəfər yaralanıb.

Qurum açıqlayıb ki, 2338 yaşayış evi, 92 çoxmənzilli bina, 415 mülki obyekt yararsız vəziyyətə düşüb. Atəş nəticəsində 2072 yaşayış evi, 90 çoxmərtəbəli yaşayış binası və 388 mülki infrastruktur obyektinə külli miqdarda ziyan dəyib.













# RAKET VƏ TOP MƏRMILƏRININ ATILMASI NƏTICƏSINDƏ HƏLAK OLAN DINC SAKINLƏR



Azərbaycan Baş Prokurorluğunun Ermənistan ordusu tərəfindən öldürülən mülki şəxslərin bölgələr üzrə statistikasına görə 27 sentyabr döyüşlər başlayan tarixdən bəri Azərbaycanda 87 mülki şəxs həlak olub (onlardan 18-i qadın, 8-i uşaq olub) və 400 nəfər yaralanıb (onlardan 69-u qadın, 32-si uşaq olub). Erməni silahlı qüvvələrinin hədəf aldığı şəhərlərin və yaşayış məntəqələrinin çoxu hərbi əməliyyatların getdiyi bölgədən 50-350 kilomometr uzaqda yerləşmişdir. Təbii ki, həmin ərazilərin vurulması üçün erməni tərəfi uzaq mənzilli raketlərdən istifadə etmişdir.

Ümumi statistika:



- Gəncəyə üç ayrı tarixlərdə atılan raket və ağır artilleriya hücumları nəticəsində 26 nəfər həlak olub, 142 nəfər yaralanıb;
- Goranboyda 3 nəfər həlak olub, 10 nəfər yaralanıb;
- Naftalanın Qaşaltı-Qaraqoyunlu kənd sakini Qurbanov Elbrus İsa oğlunun evinə top mərmisinin düşməsi nəticəsində ailənin 5 üzvü həlak olub, 1 nəfər yaralanıb.
- Tərtərdə 17 nəfər həlak olub, 56 nəfər yaralanıb;
- Bərdədə 27 nəfər həlak olub, 95 nəfər yaralanıb;
- Beyləqanda 2 nəfər həlak olub, 2 nəfər yaralanıb;
- Ağcabədidə 1 nəfər ölüb, 19 nəfər yaralanıb;
- Füzulidə 3 nəfər həlak olub, 17 nəfər yaralanıb;
- Ağdamda 7 nəfər həlak olub, 40 nəfər yaralanıb;
- Mingəçevirdə 5 nəfər yaralanıb;
- Daşkəsəndə 1 nəfər yaralanıb;
- Qəbələ rayonunda 1 nəfər yaralanıb.



**Qurbanovlar ailəsi**:




***Qurbanov Elbrus İsa oğlu (24.11.1951-ci il )***
***Qurbanova Şəfayət Novruz qızı (22.02.1956-cı ci il) - həyat yoldaşı***
***Əmirova Afaq Dəmir qızı (12.01.1981-ci il) - gəlini***
***Qurbanova Fidan Elşən qızı (01.03.2006-cı il )*** [13] ***- nəvəsi***
***Qurbanov Şəhriyar Nadir oğlu (30.11.2007-ci il ).*** [14] ***- nəvəsi***

27 sentyabr 2020-ci il tarixdə saat 06 radələrində Ermənistan silahlı qüvvələri cəhbə ərazisi olmayan Naftalan şəhərinin yaşayış məntəqələrini artilleriya silahlarından atəşə tutmuş və həmin rayonun Qaşaltı Qaraqoyunlu kəndində yerləşən fərdi yaşayış evininin həyatinə düşən mərmi nəticəsində ikisi uşaq, ikisi ahıl, biri gənc olmaqla 5 nəfərdən ibarət bütöv bir ailə həlak olmuşdur;

**Paşayev Coşqun Ənvər oğlu (1979-cu il )**
28 sentyabr 2020-il tarixdə saat 07 radələrində Ağdam rayonu Evoğlu kəndinin ərazisinə düşmüş mərmi nəticəsində baş nahiyəsindən qəlpə yarası xəsarətləri alaraq Ağdam rayon mərkəzi xəstəxanasına yerləşdirilmiş və göstərilmiş tibbi yardımlara baxmayaraq həlak olmuşdur; [15]

**Abbasov Xaliq Asif oğlu (1981-ci il)**
**Abbasov Elşən Asif oğlu (1987-ci il)**
Tərtər rayon sakinləri, 28 sentyabr 2020-ci il tarixdə saat 19 radələrində Tərtər rayonu Şıxarx qəsəbəsində yerləşən əlilliyi olan şəxslər və məcburi köçkünlər üçün inşa edilmiş çoxmənzilli yaşayış binasının həyatinə top mərmisinin atılması nəticəsində həlak olmuşlar.



**Sarıyev Elməddin Hümbət oğlu (1997-ci il)**
Ağdam rayonu, Qaradağlı kəndinin sakini, 29 sentyabr 2020-ci il tarixdə saat 13 radələrində Ermənistan silahlı qüvvələrinin ağır artilleriyadan atəşə tutması nəticəsində tibb məntəqəsinə düşmüş top mərmi qəlpələrindən həlak olmuşdur; [16]

**Mehtiyeva Ayna Məhəmmədəli qızı**
29 sentyabr 2020-ci il tarixdə Ermənistan silahlı qüvvələrinin atdığı top mərmisinin Tərtər şəhəri, Üzeyir Hacıbəyov küçəsində yaşayış evinə düşməsi nəticəsində həlak olmuşdur; [17]

**Səfərov İxtiyar Əjdər oğlu (12.02.1971-ci il)**
29 sentyabr 2020-ci il tarixdə top mərmiləri ilə açılan atəş nəticəsində Tərtər şəhərində yaşadığı evin həyatində həlak olmuşdur;

**İbrahimov Şahin Mahmud oğlu (24.12.1987-ci il)**
**Əliyev Müzəffər Əli oğlu (27.08.1971-ci il)**

[13] http://mct.gov.az/az/umumi-xeberler/13228
[14] https://sputnik.az/video/20200928/425051810/Naftalanda-butun-ailenin-telef-oldughu-evden-deh.html
[15] https://report.az/dagliq-qarabag-munaqishesi/bas-prokurorluq-cebhedeki-veziyyetle-bagli-yeni-melumat-yayib/
[16] https://qafqazinfo.az/news/detail/agdamda-ermeniler-tibb-menteqesini-vurdu-mulki-sexs-helak-oldu-299871
[17] https://azerforum.com/az/criminal/746270/terterde-daha-bir-ermeni-vehsiliyi-tibb-bacisi-lduruldu-fotolar

30 sentyabr 2020-ci il tarixdə saat 08 radələrində Tərtər şəhəri Əliağa Vahid küçəsində Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tərtər rayon şöbəsinin inzibati binasının qarşısına düşən mərminin partlaması nəticəsində həlak olmuşlar.

**Rüstəmov Murad Tahir oğlu (16.02.1990-cı il)**
30 sentyabr 2020-ci il tarixdə saat 16.00 radələrində Füzuli rayonunun Horadiz şəhəri ərazisində "Azpetrol" yanacaqdoldurma məntəqəsinin yaxınlığında mərminin partlaması nəticəsində həlak olmuşdur.

**Məmmədov Mürşüd Rəşid oğlu (16.03.1966-cı il)**
**Məmmədov Samir Mürşid oğlu (15.04.1996-cı il)**
Ağdam rayonun Hacıməmmədli kənd sakinləri, 01 oktyabr 2020-ci il tarixdə Ermənistan silahlı qüvvələri tərəfindən açılan atəş nəticəsində həlak olmuşlar.[18]

**Ələsgərov Ceyhun Camal oğlu (1958)**
**Ələsgərova Təranə Paşa qızı (1965)**
**Ələsgərov Ülvi Ceyhun oğlu (1990)**
Ermənistan silahlı qüvvələrinin 11.10.2020-ci il tarixində gecə saat 02.00 radələrində Gəncə şəhərinin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarının raket atəşinə tutulması nəticəsində həyatını itirmiş Ceyhun Camal oğlu Ələsgərov "Azərbaycan Sənaye Korporasiyası" ASC-yə (ASK) məxsus "Azəralüminium" MMC-nin Gəncə Alüminium Kompleksinin Elektroliz Vannaların və digər metallurji avadanlıqların təmiri sahəsində növbə rəisi işləmişdir.



**Cəfərova Dürrə Hilal qızı (1967)**
**Əliyeva Afaq Əziz qızı (1957)**
